# Erməni hərbi qruplaşmalarının Qarabağı tamamilə tərk etməsi qaçılmazdır

***Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən bu ilin altı ayının yekunlarına həsr olunmuş müşavirədə səsləndirilən fikirlərə diqqət yetirdikcə maraqlı və təhlilə ehtiyac duyulan məqamlar ortaya çıxır. Dövlət başçısının qeydləri bizə onu deməyə əsas verir ki, bu gün Azərbaycan Cənubi Qafqazda yaratdığı geosiyasi, iqtisadi və hərbi reallıqlardan kənara çıxmadan, öz dəqiq, korrektə edilmiş yolu ilə irəliləməli və inkişafına yönəlik bütün hədəflərə çatmalıdır. Bu prosesdə ölkə iqtisadiyyatının gücləndirilməsindən, hərbi potensialımızın daha da artırılmasından tutmuş, bütün ölkə ərazisində, xüsusilə işğaldan azad edilmiş bölgələrdə böyük tikinti-quruculuq işlərinin davamlı olaraq aparılmasına, şəhid ailələrinin və müharibə iştirakçılarının ailələrinin rifahının daim diqqət mərkəzində saxlanılmasına qədər bütün məsələ və məqsədlər nəzərdə tutulub.***

Bu gün ölkəmizdə iqtisadi inkişaf, sosial məsələlərin həlli, ordu quruculuğu, Qarabağın bərpası istiqamətində nəhəng infrastruktur, nəqliyyat, energetika layihələri icra edilir. Bütün bunlar qlobal iqtisadi problemlərin, hərbi toqquşmaların, dünyanı lərzəyə salan pandemiyanın yaratdığı qeyri-sağlam şəraitin fonunda baş verir. Əlbəttə, Azərbaycan heç nəyə və heç kimə baxmayaraq, öz yolu ilə inamla irəliləyir. Prezident çıxışında qəti olaraq bildirdi ki, Cənubi Qafqazda sülhün və əmin-amanlığın yaranmasında Azərbaycan əlindən gələni edir, lakin bütün bunlarla yanaşı, qarşı tərəf də çalışsın ki, bu işdə necə deyərlər, hansısa "daşın altına əlini qoysun". Dövlət başçısı qeyd edib ki, Ermənistanın bizim beynəlxalq hüquq norma və prinsipləri əsasında formalaşan təkliflərimizi qəbul etməsi müsbət hal olsa da, hələ ki, konkret addımlar yoxdur.

Sülh müqaviləsinin hazırlanması üçün Azərbaycan tərəfinin öz işçi qrupunu artıq formalaşdırdığını vurğulayan dövlətimizin başçısı dedi: "Orada üzvlər də, o qrupda təmsil olunan üzvlər də müəyyən edilib. Ermənistan tərəfdən hələ ki belə bir addım atılmayıb. Hesab edirəm ki, bu, yaxşı nəticə ola bilər və digər məsələlər müzakirə oluna bilər".

Müharibədən 1 il 8 ay ötməsinə baxmayaraq, başqa hər hansı müsbət məqamın olmadığını təəssüflə qeyd edən Prezident İlham Əliyev mənfi məqamların daha çox olduğunu təəssüflə bildirib. Onlardan biri Ermənistanın 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatda təsbit edilən məsələlərdən boyun qaçırmasıdır. 10 noyabr Bəyannaməsi faktiki olaraq Ermənistanın kapitulyasiya aktıdır və müharibədə məğlub edilmiş tərəf kimi Ermənistan öz üzərinə öhdəliklər götürüb. Bu öhdəliklər orada açıq-aydın göstərilir. Onlardan biri erməni silahlı qüvvələrinin Qarabağdan çıxarılmasıdır: "Bu günə qədər bu məsələ öz həllini tapmayıb. Biz dəfələrlə məsələ qaldırmışdıq, ancaq Ermənistan bunu uzadır.

Eyni zamanda, biz Rusiyanın hərbi rəhbərliyi qarşısında bu məsələni qaldırmışdıq və bir neçə ay bundan əvvəl Rusiyanın Müdafiə Nazirliyinin yüksəkvəzifəli şəxsi Azərbaycanda səfərdə olarkən bizim Müdafiə Nazirliyinə söz vermişdi ki, iyun ayına qədər erməni silahlı birləşmələri Qarabağdan çıxarılacaq. Ancaq bu gün artıq iyulun ortasıdır, bu məsələ öz həllini tapmayıb. Ermənistan 10 noyabr Bəyannaməsinə zidd olaraq bu öhdəliyi yerinə yetirmir. Rusiya sülhməramlıları–Rusiya tərəfi də 10 noyabr Bəyannaməsini imzalayıb – necə deyərlər, onlar buna məcbur etmir. Əlbəttə ki, bu, dözülməz vəziyyətdir. Çünki erməni silahlı birləşmələrinin Azərbaycan ərazisində qalması tamamilə qəbuledilməzdir. Biz qalib ölkəyik, biz öz ərazi bütövlüyümüzü bərpa etmişik. Əgər Ermənistan Azərbaycan ərazisindən öz silahlı birləşmələrini çıxarmaq istəmirsə, onda bizə bunu açıq desin, biz də işimizi biləк. Bizim cavabımız nə olacaq? Onu bəlkə də indi demək yersizdir. Ancaq bu, 10 noyabr Bəyannaməsinin kobudcasına pozulması deməkdir".

Prezident İlham Əliyev, eyni zamanda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanıdır. Qalib ordunun sərkərdəsi kimi İlham Əliyevin bu açıq fikirlərindən qarşı tərəf ciddi nəticə çıxarmalıdır. Dövlət başçısı açıq şəkildə demək istəyir ki, Ermənistanda baş verən siyasi oyunlar, hakimiyyət böhranı, revanşist qüvvələrin mövcudluğu, onların arxasında dayanan qüvvələr Azərbaycanı maraqlandırmır və onlar yaranmış qanunauyğunluğu heç bir halda dəyişə bilməz. Ermənistan tərəfi siyasi cığallıqları kənara qoyaraq bu həqiqətləri nəhayət dərk etməlidir. Belə ki, silahlı erməni qruplaşmalarının Qarabağı tamamilə tərk etməsi qaçılmaz reallıqdır.

Regionda yaranacaq siyasi və iqtisadi perspektivlərin fövqündə Azərbaycan Prezidentinin dəfələrlə qeyd etdiyi Ermənistanın 10 noyabr razılaşmalarına əməl etməsinin vacibliyidir. 10 noyabr Bəyanatının 4-cü bəndinə əsasən, erməni silahlı qüvvələri Qarabağ ərazisindən tam çıxarılmayıb. Bundan əlavə, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında dəmir yolu və avtomobil yolu təmin olunmalıdır. Amma Ermənistan bu razılaşmaya da əməl etmir. Halbuki, Azərbaycan Laçın dəhlizi ilə bağlı üzərinə götürdüyü öhdəlikləri yerinə yetirir. Bu yerinə yetirmə Ermənistan tərəfinin borcudur ki, bunsuz, ümumiyyətlə, sülhün əldə olunması mümkün deyil. Qarşı tərəf öz üzərinə götürdüyü öhdəlikləri təxirə salınmadan yerinə yetirməlidir.

Dövlət başçısının "ordu quruculuğu sahəsində öz işlərimizi davam etdiririk" – deməsi də, qarşı tərəfə mühüm mesaj kimi qiymətləndirilir. Prezident qeyd edib ki, bu altı ay ərzində hərbi sahədə də islahatlar aparılıb. Struktur islahatları, hərbi təhsildə islahatlar aparılıb. Təlimlərlə bağlı ciddi addımlar atılıb. Yeni silahlı birləşmələr yaradılıb. Yeni kontraktlar imzalanıb, hərbi texnika, silah-sursatlar alınır və alınacaq. Bizim bu il artan iqtisadi və maliyyə imkanlarımızın bir hissəsi məhz bu məsələlərə istiqamətləndirilib: "Büdcəyə əlavələr edildi, dürüstləşmə edildi və orada hərbi xərclər əhəmiyyətli dərəcədə artırıldı. Nə üçün? Deməli, buna əsas var. Biz hərbi xərclərimizi keçən il bu ilin büdcəsi təsdiq olunanda təsbit etmişdik və hesab edirdik ki, bu, kifayətdir. Ancaq sonra, bax, dediyim məsələlərə görə nə digər məsələlərə görə, burada demədiyim məsələlərə görə biz hesab edirik ki, hərbi xərcləri artırmaq lazımdır. Bu artım məhz yüksək texnoloji imkanları olan silahların alınmasına xərclənəcək. Mən bunu da demək istəyirəm. Çünki biz görürük ki, yeni imzalanmış kontraktlara ehtiyac var. Ən müasir hərbi texnika və silahların alınması üçün bu il dürüstləşmə zamanı hərbi xərclərimiz artıb. Nə qədər lazımdırsa, o qədər də artıracağıq. Çünki biz müharibə nədir, işğal nədir yaxşı bilirik və təhlükə nədir onu da yaxşı bilirik. Hər an hazır olmalıyıq ki, öz hüququmuzu istənilən yolla təmin edək".

Prezident İlham Əliyevin bildirdiyi bu qəti və lakonik yol xəritəsi regionda sülh istəməyən qüvvələrə vacib mesaj olmaqla yanaşı, eyni zamanda, Ermənistana təsir edə biləcək böyük güclərin də nəticə çıxarması üçün vacib xatırlatmadır. Bu, o deməkdir ki, Azərbaycan sülh üçün önəmli addım atmaqdan çəkinmir, lakin ayıq-sayıqlığını da əldə vermək istəmir, əlinin hər zaman tətikdə olduğunu da qarşı tərəfə xatırladır. Bu, həm də Azərbaycan tərəfinin öz məqsədlərində sonacan prinsipiallıq və qətiyyət nümayiş etdirəcəyini söyləməyə əsas verir.

Bu gün müstəqil siyasət yürütməsi ilə fərqlənən Azərbaycanın bütün qonşu ölkələrlə bərabərhüquqlu, qarşılıqlı əməkdaşlığa söykənən konstruktiv münasibətlərdə düşünülmüş addımlar atması göz önündədir. Xarici siyasətini hələ də xaotik üslubda quran Ermənistan üçün bu xarakterik olmasa da, başqa çarələri yoxdur. Paşinyan hökumətinin Ermənistanı dəyişmək şansları əsasən Azərbaycanla olan münasibətlərin inkişafından asılıdır. Bura erməni əhalisinin rifahının yüksəlməsindən tutmuş, regionda sülh, sabitlik reallıqlarının yaranmasına və Ermənistan tərəfin bundan hərtərəfli qazanc götürməsinə qədər bir çox inkişaf perspektivləri daxildir.





***Anar TURAN, "Xalq qəzeti"***